# YÜKLƏRİN SIĞORTASI QAYDALARI

**BAKI - 2012**

# ÜMUMİ ANLAYIŞLAR

Əgər qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

**Sığortaçı** - sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Faydalanan şəxs(lər)** - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs;

**Aktuari** - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

**Sığorta hadisəsi** - qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Sığorta məbləği** – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

**Sığorta tələbi** - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Sığorta obyekti** – sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

**Sığorta predmeti** – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu əmak;

**Sığorta marağı** - Sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta riski və ya risk** - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

**Sığorta şəhadətnaməsi** - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

**Sığortanın müddəti** – sığorta risklərinin təminatda hesab olunduğu müddət;

**Azadolma məbləği** – Azadolma məbləği, sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur

**Əhəmiyyətli hallar** – Sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır;

**Sığortanın ərazisi** – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

## MADDƏ 1. SIĞORTA PREDMETİ VƏ SIĞORTANIN SİNİFİ

**1.1.** Bu qaydalara əsasən sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu yük sığortanın predmeti hesab olunur.

**1.2.** Bu qaydalara əsasən təminat verilən “Yüklərin sığortası” növü yüklərin nəqliyyat sığortası sinifinə aid edilir.

## MADDƏ 2. SIĞORTA OBYEKTİ

**2.1.** Bu qaydalara əsasən sığorta obyekti, daşınan yükün məhv olması, zədələnməsi ilə bağlı Sığortalının qüvvədə olan qanunvericiliyə zidd olmayan əmlak maraqlarıdır.

## MADDƏ 3. SIĞORTA MƏBLƏĞİ

**3.1.** Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin həddidir.

**3.2.** Tərəflər arasında qiymətləndirmə zamanı başqa şərtlər nəzərdə tutulmamışdırsa, yükün yüklənmə tarixindəki dəyəri və daşınma vasitəsinə yüklənənə qədər çəkilən bütün xərclərin cəmi yükün sığorta dəyərini əmələ gətirir. Tərəflərin qarşılıqlı razılığına əsasən nəqliyyat haqqı, daşıma zamanı və yükün ünvanlandığı son məntəqədə çəkilən xərclər də sığorta dəyərinə əlavə edilə bilər. Nəqliyyat haqqı və yuxarıda göstərilən xərclər sığorta etdirilmiş olsalar da, hadisə baş verdiyinə görə həmin xərclərin çəkilməyən hissələrinə görə ödəniş verilmir.

**3.3.** Yük sığortası üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında), sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**3.4.** Sığorta müqaviləsində göstərilmiş sığorta məbləği sığorta dəyərindən artıq olduqda, sığorta məbləğinin sığorta dəyərindən artıq olduğu hissə üçün müqavilə etibarsızdır.

**3.5.** Sığorta məbləği sığortanın qüvvədə olduğu müddət ərzində baş verən bütün sığorta hadisələri ilə əlaqədar verilən sığorta təminatı üzrə ödənişin maksimum miqdarını müəyyən edir.

## MADDƏ 4. SIĞORTA RİSKLƏRİ VƏ İSTİSNALAR

**4.1.** Bu sığorta şərtləri ilə, sığorta predmeti olan yükün, müqavilədə göstərilən vaxt və ya daşıma müddəti ərzində müqavilədə göstərilən nəqliyyat vasitələrilə daşınması və yaxud daşınma zamanı hansısa bir anbarda müvəqqəti olaraq saxlandığı zaman məruz qaldığı sığorta hadisələri nəticəsində dəyən ziyan və zərərlərə, həmçinin onunla əlaqədar xərclərə sığorta təminatı verilir.

**4.2.** Ziyan və zərərin və yaxud xərclərin miqdarı və mahiyyəti, təminata daxil edilən hadisələr və istisnalar Sığorta şəhadətnaməsinə əlavə edilən aşağıda sadalanan qeyd-şərtlərə əsasən müəyyən edilir.

**4.2.1.** Qeyd-şərt A.CL 252
**4.2.2.** Qeyd-şərt B.CL 253
**4.2.3.** Qeyd-şərt C.CL 254
**4.2.4.** Qeyd-şərt CL 255 - Müharibə
**4.2.5.** Qeyd-şərt CL 256 - Tətil
**4.2.6.** Qeyd-şərt CL 370 -Radioaktiv Tullantılar, Kimyəvi, Bioloji, Bio-kimyəvi və Elektromaqnit Silahların İstisnası

## MADDƏ 5. SIĞORTA MÜQAVİLƏSİ

**5.1.** Sığorta müqaviləsinin bağlanması

**5.1.1.** Sığorta müqaviləsi Sığortalının yazılı ərizəsi əsasında bağlanır. Ərizə sığorta müqaviləsinin ayrılmaz tərkib hissəsi və əsasını təşkil edir.

**5.1.2.** Sığorta müqaviləsi bağlanarkən Sığortalı sığortaya qəbul edilən daşınar yükə dair riskin dərəcəsinin müəyyən edilməsi üçün əhəmiyyətli və ona məlum olan bütün hallar haqqında Sığortaçıya məlumat verməlidir. Sığortalının ərizə formasında qeyd etdiyi hallar həmçinin əhəmiyyətli hallar hesab edilir.

**5.1.3.** Sığorta müqaviləsi bağlandıqdan sonra Sığortalının Sığortaçıya bilərəkdən yalan məlumatlar verməsi müəyyən edilərsə, Sığortaçı müqavilənin etibarsız hesab edilməsini tələb edə bilər.

**5.1.4.** Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları və xüsusi şərtlər olan Qeyd Şərt(lər) əlavə edilməklə, Sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.

**5.2. Sığorta müqaviləsinin tərəfləri**

**5.2.1.** Sığortaçı

**5.2.1.1.** Bu Qaydalara əsasən Sığortaçı “Meqa Sığorta” Açıq Səhmdar Şirkəti

**5.2.2.** Sığortalı

**5.2.2.1.** Bu Qaydalara əsasən Sığortalı sığorta predmetinə münasibətdə sığorta marağı olan hər hansı bir fiziki və ya hüquqi şəxs hesab olunur.

**5.2.2.2.** Bu Qaydalar daxilində Sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən Sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

**5.2.3.** Faydalanan şəxs

**5.2.3.1.** Sığorta müqaviləsi hər hansı hüquqi və ya fiziki şəxsin – Faydalanan şəxsin xeyrinə bağlana bilər.

**5.2.3.2.** Faydalanan şəxsin adı sığorta müqaviləsində göstərilməlidir.

**5.2.3.3.** Sığorta müqaviləsinin Faydalanan şəxsin xeyrinə bağlanması Sığortalını müqaviləyə əsasən vəzifə və öhdəliklərindən azad etmir.

**5.2.3.4.** Bu Qaydalar və sığorta müqaviləsi ilə Sığortalıya aid edilən bütün müddəalar sığortadan faydalanmaq niyyətində olan Faydalanan şəxsə də eyni həcmdə aid edilir.

## MADDƏ 6. SIĞORTA HAQQI

**6.1.** Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.

**6.2.** Sığorta haqqı bir dəfəyə ödənilir və ya tərəflərin razılğına əsasən hissə-hissə ödənilə bilər.

**6.3.** Sığorta haqqının ödənildiyi gün, pul vəsaitinin Sığortaçının bank hesabına və ya kassasına daxil olduğu gün hesab olunur.

**6.4.** Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün saat 24:00-da, lakin şəhadətnamədə göstərilmiş sığorta müddətinin başlanma tarixindən tez olamayaraq qüvvəyə minir.

**6.5.** Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə, sığorta müqaviləsində sığorta haqqının və ya onun növbəti hissəsinin ödəniş günü kimi nəzərdə tutulmuş tarixdən sonrakı gün saat 24:00-dan Sığortaçı sığorta ödənişi vermək öhdəliyindən azad edilir.

**6.5.1.** Bu halda sığortaçı onun ödənilməsi üçün bu qaydaların 7.5.2.-cı maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 günədək əlavə müddət müəyyən edə bilər.

**6.5.2.** Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

**6.6.** Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, Sığortaçı sığorta müqaviləsinə xitam verə bilər və ya birtərəfli qaydada müqavilənin icrasından imtina edə bilər.

## MADDƏ 7.SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

**7.1.** Sığorta, şəhadətnamədə qeyd olunan marşrut hüdudlarında, təminatda hesab olunur.

**7.2.** Sığortalanmış daşınar yük razılaşdırılmış marşrutdan çıxarıldıqda sığorta təminatı dayandırılır.

## MADDƏ 8. SIĞORTA MÜDDƏTİ

**8.1.** Sığorta müddəti, sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsinin bağlandığı gün saat 24:00-da başlanır və, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat 24:00-da başa çatır.

## MADDƏ 9. AZADOLMA MƏBLƏĞİ

**9.1.** Sığorta müqaviləsində şərtli və ya şərtsiz azadolma məbləği, Sığortalı ilə Sığortaçı arasındakı razılığa əsasən müəyyən oluna bilər.

**9.2.** Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda, zərər məbləğindən azadolma məbləği çıxılmır.

**9.3.** Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda, həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

**9.4.** Sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində bir neçə sığorta hadisəsi baş verdikdə azadolma məbləği hər bir hadisə üzrə tətbiq olunur.

## MADDƏ 10. RİSKİN DƏRƏCƏSİNİN DƏYİŞMƏSİ

**10.1.** Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində, Sığortalı, sığorta müqaviləsi bağlanan zaman Sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə Sığortaçıya dərhal məlumat verməlidir.

**10.2.** Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

**10.2.1.** sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək,

**10.2.2.** əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya

**10.2.3.** belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsinə xitam vermək.

## MADDƏ 11. ŞƏRİKLİ SIĞORTA

**11.1.** Şərikli sığorta bir neçə sığortaçının aralarında bağladıqları müqaviləyə müvafiq olaraq, sığorta ödənişi üzrə öhdəlikləri bölüşdürməklə sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta risklərini eyni zamanda sığortalamaları ilə bağlı fəaliyyət və bununla əlaqədar yaranan münasibətlərdir.

**11.2.** Sığorta obyekti bir müqavilə ilə bir neçə sığortaçı tərəfindən sığortalana bilər. Bu müqavilədə hər bir sığortaçının razılaşdırılmış paylar əsasında hüquq və vəzifələrini müəyyən edən şərtlər olmalıdır.

**11.3.** Sığortalı qarşısında öhdəliyi öz payı miqdarında olmaqla şərikli sığortaçılardan biri sığortalı ilə münasibətdə bütün şərikləri təmsil edə bilər.

**11.4.** Müvafiq sığorta növü üzrə fəaliyyət göstərməyə icazəsi olmayan sığortaçı şərikli sığortada iştirak edə bilməz.

## MADDƏ 12. SIĞORTA MÜQAVİLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

**12.1.** Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı, faydalanan şəxsin (əgər varsa) yazılı razılığı ilə müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

## MADDƏ 13. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLMƏSİ

**13.1.** Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

**13.1.1.** Müqavilənin müddəti bitdikdə;
**13.1.2.** Sığortaçı müqavilə üzrə Sığortalı qarşısında öhdəliklərini tam həcmdə icra etdikdə;
**13.1.3.** Sığortalı sığorta haqlarını müqavilə ilə müəyyən olunmuş müddətdə ödəmədikdə;
**13.1.4.** Sığortaçı, Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında ləğv edildikdə;
**13.1.5.** Sığorta müqaviləsinin etibarsız hesab olunması haqqında məhkəmə tərəfindən qərar qəbul edildikdə;
**13.1.6.** Sığorta marağı artıq mövcud olmadıqda;
**13.1.7.** Sığorta predmeti artıq mövcud olmadıqda.
**13.1.8.** Azərbaycan Respublikasinin qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

**13.2.** Sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər.
**13.3.** Bu barədə tərəflər bir-birini, qanunla müəyyən edilən hallar istisna olmaqla, azı 30 (otuz) gün əvvəl yazılı surətdə xəbərdar etməlidirlər.
**13.4.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

**13.4.1.** Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə ğzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.
**13.4.2.** Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.
**13.4.3.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.
**13.4.4.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqıməbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu maddənin 14.4.1-ci və 14.4.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**13.4.5.** Sığorta müqaviləsi məhkəmə qərarı əsasında (sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa) xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 14.4.3.-cü və 14.4.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## MADDƏ 14. TƏRƏFLƏRİN HÜQUQ VƏ ÖHDƏLİKLƏRİ

**14.1.** Sığortalının aşağıdakı hüquqları var:

**14.1.1.** sığorta hadisəsi baş verdikdə sığorta ödənişi almaq;
**14.1.2.** sığorta müqaviləsini hər hansı başqa şəxsin (hüquqi və ya fiziki) – faydalanan şəxsin xeyrinə bağlamaq;
**14.1.3.** sığorta müqaviləsinə əlavə və dəyişiklik etmək;
**14.1.4.** sığorta müqaviləsinə xitam vermək;
**14.1.5.** itirilmiş şəhadətnamənin yerinə dublikatını almaq.
**14.1.6.** mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar

**14.2.** Sığortalının aşağıdakı vəzifələri var:

**14.2.1.** sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 18.1-ci maddəsində müəyyən edilmiş müddətdə sığortaçını xəbərdar etməli;
**14.2.2.** ziyanın qarşısının alınması və azaldılması üçün bütün zəruri tədbirlər görməli, sığorta haqqını vaxtında ödəməli;
**14.2.3.** sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir, riskin dərəcəsinin sonradan dəyişilməsi barədə sığortaçıya məlumat verməli;
**14.2.4.** sığortalanmış obyektə dair qüvvədə olan digər sığorta müqavilələri barədə sığortaçıya məlumat verməli;
**14.2.5.** sığorta hadisəsi faktının mövcudluğunu sübut etmək vəzifəsi Sığortalının üzərinə düşür və Sığortalı qanunvericilik və formalaşmış təcrübə ilə tələb olunan sənədlər də daxil olmaqla Sığortaçını bütün zəruri sənədlərlə təmin etməlidir;
**14.2.6.** mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

**14.3.** Sığortaçının aşağıdakı hüquqları var:

**14.3.1.** sığortalının bildirdiyi məlumatların düzgünlüyünü yoxlamaq;
**14.3.2.** sığortalanmış riskin dərəcəsi artdıqda, Sığortalıya sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən, sığorta riskinin artması nisbətində

əlavə sığorta haqqının ödənilməsini təklif etmək və ya Sığortalını xəbərdar etdikdən sonra sığorta müqaviləsinə xitam vermək;

**14.3.3.** sığortalanan predmetə baxış keçirmək, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirmək, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədi ilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin etmək;

**14.3.4.** sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortalıdan tələb etmək;

**14.3.5.** sığortalı sığorta müqaviləsi üzrə öz öhdəliklərini icra etmədikdə, saxta sənədlər təqdim etdikdə və ya zərərin artırılması və ya sığorta ödənişinin əsassız şəkildə artırılması məqsədilə qəsdən hərəkətlər etdikdə, sığorta ödənişinin verilməsindən tam və ya qismən imtina etmək;

**14.3.6.** mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar

**14.4.** Sığortaçının aşağıdakı vəzifələri var:

**14.4.1.** sığortalını sığorta qaydaları ilə tanış etməli;

**14.4.2.** sığorta hadisəsi baş verdikdə bütün zəruri sənədləri aldıqdan sonra sığorta ödənişini bu Qaydaların 17.10-ci maddəsində müəyyən edilmiş müddətdə verməli;

**14.4.3.** qanunvericliklə nəzərdə tutulmuş hallardan başqa, Sığortalı şəxsin əmlak vəziyyəti, o cümlədən kommersiya sirri olan məlumatları yaymamaq;

**14.4.4.** sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək;

**14.4.5.** mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

## MADDƏ 15. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ ÖHDƏLİKLƏRİ

**15.1.** Sığorta hadisəsinin baş verməsi barədə sığortalı, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

**15.1.1.** Zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş yükün xilas edilməsi üçün bütün mümkün tədbirləri görməli və belə tədbirlərin görülməsi zamanı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir;

**15.1.2.** Sığortaçının və ya onun nümayəndələrinin zərər dəymiş yükə baxışın keçirilməsində və ya tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, zərərin təsirinin azaldılması və zərər vurulmuş yükün xilas edilməsi tədbirlərində iştirakını təmin etməli;

**15.1.3.** Sığortaçının tələbi ilə sığortalanmış yükün məhv olması və ya vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün zəruri bütün məlumat və sənədləri Sığortaçıya təqdim etməli;

**15.1.4.** Yük sığortası müqaviləsi üzrə sığortalı aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş yükü sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

**15.1.4.1.** zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş yükün sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə yükün hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş yükün hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

**15.1.4.2.** sığortaçı sığorta hadisəsi barədə bu qaydalarda nəzərdə tutulmuş müddətdə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş yükün baxış keçirmədikdə;

**15.1.4.3.** digər hallarda zərər dəymiş yükün sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

**15.1.5.** Sığortalı tərəfindən yuxarıda göstərilmiş hər hansı öhdəliyin icra olunmaması sığorta müqaviləsinin əhəmiyyətli şəkildə pozulması hesab edilir və Sığortaçının sığorta ödənişini vermək öhdəliyindən azad edir.

## MADDƏ 16. ZƏRƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ

**16.1.** Sığortaçı sığorta hadisələrinin səbəb olduğu aşağıdakı zərərləri ödəyir:

**16.1.1.** Sığorta predmetinə dəyən real zərərləri;

**16.1.2.** Zərərin azaldılması üçün çəkilən xərclər.

**16.1.2.1.** Sığortaçı tərəfindən əvəzi ödənilməli olan zərərləri azaltmaq məqsədilə Sığortalının çəkdiyi xərclər, həmin xərclərin digər zərərlərlə birlikdə sığorta məbləğini aşa bilməsindən asılı olmayaraq (hər bir halda 5%-dən yuxarı olmamaqla) sığortaçı tərəfindən ödənilir, o şərtlə ki, belə xərclər zərurət və ya sığortaçının göstərişlərini yerinə yetirmək məqsədilə ortaya çıxmış olsun.

**16.2.** Sığortaçı zərərlərin qarşısını almaq və ya azaltmaq məqsədilə bilərəkdən Sığortalının mümkün (səmərəli) və ağlabatan tədbirləri görməməsi nəticəsində ortaya çıxan zərərləri ödəmək öhdəliyi daşımır.

**16.3.** Qismən sığorta zamanı – sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;

**16.4.** Sığorta şəhadətnaməsində azadolma məbləği nəzərdə tutulduqda - azadolma məbləğının miqdarı çıxılmaqla zərərlərə təminat verilir;

**16.5.** İkili sığorta zamanı – Sığorta hadisəsi zamanı eyni sığorta predmetinə Sığortaçının təminat verdiyi risk üzrə hər hansı digər sığortaçı(lar) da təminat vermişdirsə, bu halda sığorta ödənişi hər bir sığortaçı arasında mütənasib olaraq bölünür.

**16.6.** Sığorta şəhadətnaməsi ilə təminat verilən hadisəyə başqa bir sığorta şəhadətnaməsi ilə də təminat verilmiş olarsa və bu təminat barədə Sığortaçıda sığorta müqaviləsi bağlanmazdan əvvəl məlumat olarsa şərikli sığorta əsasları tətbiq edilir;

**16.7.** Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**16.8.** Sığorta şəhadətnaməsi üzrə sığorta ödənişlərinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.

**16.9.** Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.

**16.10.** Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**16.11.** Sığorta ödənişi Sığortaçı Sığortalıdan zərər faktını, onun səbəblərini və həcmini təsdiq edən bütün zəruri sənədləri aldıqdan sonra 15 gün ərzində verilməlidir. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır. Tələb olunmuş sənədlərin təqdim olunmaması Sığortaçıya zərəri ödəməmək hüququ verir.

- sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi (ərizə, müraciət);
- sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;
- sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlər.
- sığorta hadisəsinin baş verməsini təsdiqləyən digər sənədlər;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə tələb olunan sənədlər.

**16.12.** Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, bu minimal zəruri olan sənədlərin toplusudur. Sığortaçı zərurət yarandıqda sığortalıdan sığorta hadisəsinin baş verməsi səbəblərini və faktını, həmçinin dəyən zərərin həcminin müəyyən edilməsi üçün zəruri olan digər sənədlərin təqdim edilməsini tələb etməyə haqlıdır.

## MADDƏ 17. AŞAĞIDAKI HALDA SIĞORTAÇI SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNİ TƏXİRƏ SALA BILƏR

**17.1.** Sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı sığortalı barəsində həmin hadisənin baş verməsi ilə əlaqədar inzibati xəta üzrə iş və ya cinayət işi başlanarsa, sığortaçı müvafiq sığorta ödənişinin verilib-verilməməsi barədə qərarını səlahiyyətli orqanın bu iş üzrə yekun qərarından sonra qəbul edir.

**17.2.** Sığortalı zədələnmiş də olsa sığorta hadisəsindən sonra qalmış əmlakdan imtina etmirsə, əmlakın qalıq dəyəri sığorta ödənişi məbləğindən çıxılır. Lakin imtina edərsə, Sığortaçı sığortalanmış əmlakın məhv olmasına görə müvafiq ödəniş verdikdən və ya onun ehtiyat hissələrini başqası ilə əvəz etdikdə sığortalının həmin əmlaka və yaxud ehtiyat hissələrinə olan hüquqları Sığortaçıya keçir. Bütün qalıqlar Sığortaçıya verilməlidir. Sığortalı həmin hüquqların Sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri görməyə borcludur. İtmiş əmlakın sonradan tapılması halında Sığortaçı öz rəyinə əsasən əmlakı özündə saxlamaq və yaxud Sığortalıya qaytarmaq hüququna malikdir. Ikinci halda əmlaka görə alınmış sığorta ödənişi Sığortaçıya geri qaytarılmalıdır. Əgər əmlak korlanmış vəziyyətdə əldə olunarsa, Sığortaçı Sığortalıya həmin zərərlərin əvəzini ödəyir.

**17.3.** Sığortalı və ya Faydalanan şəxs zərərin ödənişini üçüncü şəxslərdən aldıqda, Sığortaçı ancaq sığorta şərtlərinə əsasən ödənilməli məbləğlə üçüncü şəxslərdən alınmış məbləğ arasındakı fərqi ödəyir. Sığortalı bu cür məbləğləri aldığı barədə Sığortaçıya dərhal məlumat verməlidir.

**17.4.** Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

## MADDƏ 18. ÖDƏNİŞDƏN İMTİNANIN ƏSASLARI

**18.1.** Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

**18.1.1.** sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş yükün ona təqdim edilməsi ilə bağlı bu qaydaların 15.1.4-cü maddəsinə riayət edilmədikdə;

**18.1.2.** qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

**18.1.3.** müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi təminata istisna hesab olunan halların nəticəsi olması;

**18.1.4.** sığortalının sığortalanmış yükə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o

**18.1.5.** həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

**18.1.6.** sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu qaydaların 15.1.4.1-ci maddəsində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda yükün hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

**18.1.7.** bu qaydaların 18.2-ci maddəsi nəzərə alınmaqla, sığorta predmeti, sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

**18.1.8.** sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

**18.1.9.** baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

**18.1.10.** sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu qaydaların 6.5.1-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

**18.1.11.** sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

**18.2.** Bu qaydalarınn 14.2.3-ü maddəsində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi faktına əsaslana bilməz.

## MADDƏ 19. SUBROQASİYA HÜQUQU

**19.1.** Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.

**19.2.** Sığortalının (Faydalanan şəxsin) zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

**19.3.** Sığortalı (Faydalanan şəxs) sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

**19.4.** Sığortalı (Faydalanan şəxs) şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala

**19.5.** biləcəyi məbləğ həcmində azad edilir və ya artıq həyata keçirilmiş sığorta ödənişinin qaytarmasını tələb edə bilər.

**19.6.** Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

## MADDƏ 20. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

**20.1.** Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə və ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## MADDƏ 21. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

**21.1.** Sığortaçı, Sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda Sığoratalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır

## MADDƏ 22. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

**22.1.** Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

## YÜK SIĞORTASI ÜZRƏ QEYD-ŞƏRT A.CL 252

## SIĞORTA OLUNAN RİSKLƏR

**1.** Bu sığorta, aşağıdakı 4,5,6 və 7–ci maddələrdə göstərilənlər istisna olmaqla, sığorta predmetinin məhv olması və ya zədələnməsi üzrə bütün risklərə münasibətdə sığorta təminatı verir.

**2.** Bu sığorta, daşıma müqaviləsi və/və ya müvafiq qanun və təcrübə əsasında müəyyən edilən və hesablanan, 4,5,6, və 7-ci bəndlərdə və ya bu sığortanın hər hansı başqa yerində əks olunmuş istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən baş verən itkinin qarşısının alınması məqsədi ilə çəkilən ümumi qəza və ya xilas etmə xərclərini əhatə edir.

**3.** Bu sığorta daşıma müqaviləsinin «Hər iki tərəfin günahına görə toqquşma haqqında» maddəsi üzrə, sığortalının, bu sığorta ilə əhatə olunan zərərlərlə əlaqədar yaranan

**4.** məsuliyyətinin müvafiq hissəsi üçün sığorta təminatı verir. Göstərilmiş maddə üzrə gəmi sahibləri tərəfindən hər hansı tələbin irəli sürülməsi halında, sığortalı, bu haqda sığortaçıları məlumatlandırmağı öhdəsinə götürür. Sığortaçılar öz hesablarına Sığortalını bu cür tələblərə qarşı müdafiə etmək hüququna malikdirlər.

## İSTİSNALAR

**5.** Bu sığorta heç bir halda aşağıdakı sığorta təminatlarını əhatə etməyəcək:

**5.1.** Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər

**5.2.** Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta predmetinin təbii köhnəlməsi və ya axması.

**5.3.** Sığorta predmetinin tam və ya düzgün qablaşdırılmaması və ya sığorta predmetinin hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər (bu 4.3-cü maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək).

**5.4.** Sığorta predmetinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya çəkilmiş xərclər.

**5.5.** Gecikmədən irəli gələn zərər, itki və ya xərclər, hətta belə gecikmə sığorta hadisəsi nəticəsində olmuşdursa (Yuxarıda təsbit edilmiş 2-ci maddənin əsasında ödənilməli olan xərclər istisna olmaqla).

**5.6.** Gəmi sahiblərinin, icarəçilərinin və ya istismarçılarının ödəmə qabiliyyətini itirməsi və ya öz maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinin səbəb olduğu ziyan, itki və başqa xərclər.

**5.7.** Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və/və ya birləşməsi və ya hər hansı başqa anoloji reaksiya olan və ya nüvə enerjisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

**6.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan, itki və ya xərcləri əhatə etməyəcək:

**6.1.** Gəminin və ya bərənin istifadəyə yararlı vəziyyətdə olmaması

**6.2.** Konteynerin, gəminin, bərənin və ya hər hansı digər nəqliyyat vasitəsinin sığorta predmetini təhlükəsiz şəkildə daşımaq üçün yararlı vəziyyətdə olmaması və ya uyğun olmaması

**6.3.** Sığorta predmetinin yüklənməsi anında Sığortalının belə yararsızlıq və ya uyğunsuzluq haqqında məlumatının olması halında

**6.4.** Gəminin yararlılığı və sığorta predmetini daşıması üçün uyğun olması ilə əlaqədar ehtimal olunan təminat yalnız o halda pozulmuş hesab ediləcək ki, Sığortalının və ya onun işçilərinin bu haqda məlumatı olsun.

**7.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək:

**7.1.** Müharibə, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab və bunların və ya hər hansı düşmən qüvvəsinin istifadə etdiyi və ya bu qüvvəyə qarşı istifadə edilən hərbi əməliyyatların səbəb olduğu vətəndaş iğtişaşları;
**7.2.** İşğal, zəbt etmə, müsadirə, məhdudlaşdırma və ya saxlanılma və onların nəticələri və ya onları törədmək cəhdi.
**7.3.** Tərk edilmiş minalar, torpedolar, partlayıcılar və başqa tərk edilmiş müharibə silahları

**8.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

**8.1.** Tətillər, lokautlar, əmək münaqişələri, qiyamlar və vətəndaş iğtişaşları
**8.2.** Tətil, lokaut, işçilərin kütləvi işdən azad edilməsindən və ya fəhlə iğtişaşlarında iştirak edən şəxslərin hərəkətlərindən, üsyan və ya ictimai iğtişaşlardan irəli gələn zərər və xərclər
**8.3.** Hər hansı terrorçu və ya hər hansı şəxsin siyasi motivlərlə bağlı hərəkətləri nəticəsində yaranan itki, zərər və xərclər

## SIĞORTA MÜDDƏTİ

**9.** Tranzit keçiş üzrə qeyd-şərt

**9.1.** Bu sığorta yük anbarlardan çıxarılan andan, yaxud müqavilədə göstərilən saxlanma yerindən çıxarıldığı andan qüvvəyə minir və daşımanın adi müddəti ərzində davam edir və aşağıdakı hallarda başa çatır:
- **9.1.1.** Müqavilədə göstərildiyi kimi yük, alan tərəfə çatdırıldıqda, yaxud digər son anbara, və ya müqavilədə qeyd olunan saxlanılma yerinə çatdırıldıqda.
- **9.1.2.** Təyinat vaxtından əvvəl, yaxud təyinat vaxtında digər hər hansı anbara, və ya saxlanma məntəqəsinə çatdırıldıqda. həmin yerlərin hər birini Sığortalı aşağıdakı məqsədlər üçün istifadə edir:
  - **9.1.2.1.** adi yük daşımadan fərqli olaraq, saxlanma
  - **9.1.2.2.** yerləşdirmə və ya bölüşdürmə və yaxud
- **9.1.3.** Sığortalanmış yükün gəmidən axırıncı boşaldılma limanında tam boşaldıldığı andan müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa 60 gün başa çatana qədər, hər hansının (boşaldılma və ya qoyulan günlük hədd) tez baş verdiyindən asılı olaraq.

**9.2.** Əgər son boşaldılma limanında yük gəmidən boşaldıldıqdan sonra bu sığorta hələ qüvvədədirsə və yük başqa təyinat yerinə yola salınmalıdırsa, bu sığorta yalnız göstərilən digər daşınmanın başlanması anına qədər qüvvədə qalır.
**9.3.** Sığortalıdan asılı olmayan səbəblərdən yük ləngidildikdə, yaxud marşrut dəyişdirildikdə, yaxud yenidən yükləndikdə, eləcə də nəqliyyat vasitəsi sahibi, yaxud nəqliyyat vasitəsini icarəyə götürənlər daşıma müqaviləsinə əsasən öz hüquqlarından istifadə edərək hər hansı dəyişikliklər apararlarsa, bu sığorta qüvvədə qalır. (Bu halda yuxarıda göstərilən xitam şərti və 9-cu maddənin şərtlərinə riayət olunur).

## SIĞORTA MÜQAVİLƏSİNİN BİTMƏ MÜDDƏTİ

**10.** Əgər Sığortalıdan asılı olmayan səbəblərdən yükdaşıma müqaviləsi başqa portda, yaxud məntəqədə başa çatarsa, yaxud yük təyinat yerinə çatdırılmazdan əvvəl başa çatarsa Sığortalı sığortaçıya bu barədə dərhal xəbər verib, sığortanın müddətini uzatmazsa bu sığortada başa çatmış hesab olunur.

**10.1.** Yük satılmışdırsa və bu cür limana, yaxud məntəqəyə çatdırılmışdırsa, yaxud yük bu cür limana çatdırıldıqdan sonra 60 gün tamamlanana qədər (hər hansı tez baş verərsə), və yaxud

**10.2.** Əgər yük qeyd olunan 60 gün ərzində, yaxud xüsusi olaraq razılaşdırılmış daha uzun müddət ərzində əvvəlcədən müəyyənləşdirilmiş təyinat yerinə, yaxud hər hansı digər təyinat yerinə daşındığı halda, sığorta təminatı 8-ci maddədə göstərilən səbəblərdən qurtara bilər.

## SIĞORTA MÜQAVİLƏSİNİN DƏYİŞDİRİLMƏSİ

**11.** Bu sığorta qüvvəyə mindikdən sonra Sığortalı təyinat yerini dəyişərsə, o bu barədə dərhal Sığortaçıya məlumat verir, müvafiq sığorta haqqı ödəyir və sığorta şərtlərində uyğun dəyişikliklər aparılır.

## İDDİALAR

**12.** Sığorta ödənişinin verilməsi

**12.1.** Bu sığortaya görə ödəniş almaq üçün Sığortalının sığorta hadisəsi baş verdiyi anda sığortalanmış predmetdə öz marağı olmalıdır.

**12.2.** Maddə 11.1-də göstərilənlərə uyğun olaraq Sığortalı zərərin, sığorta müqaviləsinin bağlanmasından əvvəl baş verməsinə baxmayaraq sığorta təminatı müddəti ərzində sığorta ödənişini almaq hüququ vardır. Sığortalı zərər haqqında məlumatı olub Anderrayterin məlumatı olmadığı hallar istisna olunur.

**13.** Daşınma zamanı xərclər üzrə qeyd-şərt

Əgər bu sığortada risk nəticəsində yükdaşıma bu sığortada qeyd olunan yerdən fərqli limanda, yaxud məntəqədə başa çatarsa Sığortaçı Sığortalıya bütün zəruri və məqsədəuyğun şəkildə çəkilmiş boşaltma, saxlama və yükün sığortalanmış yerə qədər daşınma xərclərini ödəyir.
Bu maddə ümumi qəza və xilasetmə üzrə xərclərə şamil olunmur və yuxarıda 4, 5, 6 və 7-ci maddələrdə göstərilən istisnalar qüvvədə qalır. Eləcə də Sığortalının, yaxud onun xidmətçisinin səhvi, səhlənkarlığı, ödəniş qabiliyyətli olmaması, yaxud maliyyə öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranan xərclərə görə sığorta təminatı verilmir.

**14.** Konstruktiv tam məhv olma üzrə qeyd-şərt

Sığortalının yükü tam məhv olduqda, Sığortaçı sığorta ödənişini, sığorta məbləğindən yuxarı olmamaq şərtilə həmin yükün sığorta hadisəsinin baş verdiyi tarixdəki həqiqi dəyərindən sığorta hadisəsindən sonrakı dəyəri çıxmaqla alınan məbləğ həcmində ödəyir.

**15.** İkili sığorta üzrə qeyd-şərt

**15.1.** Əgər Sığortalı sığorta olunan yükü digər Sığortaçılarda sığortalamaqla sığorta məbləğini artırmışdırsa, bu halda sığortalanmış yükün ümumi qiyməti artırılmış olur.

**15.2.** Əgər 14.1. bəndi baş verərsə, bu sığorta üzrə məsuliyyət həddi proporsional qaydada faktiki sığorta qiymətinin yükün ümumi qiymətinə olan nisbətində müəyyənləşdirilir. İddia baş qaldırdığı halda Sığortalı bütün digər sığorta müqavilələri üzrə sığortalanmış məbləğ haqqında Sığortaçıya məlumat verməlidir.

## BU SIĞORTA ÜZRƏ FAYDALANAN ŞƏXS

**16.** İstifadə edilməmə üzrə qeyd-şərt

Bu sığorta yükdaşıyanın və ya yükün saxlanmasında məsul olan digər şəxsin mənafeyinə xidmət edə bilməz.

## ZƏRƏRİN MİNİMUMA ENDİRİLMƏSİ

**17.** Sığortalının məlumat vermə vəzifəsi üzrə qeyd-şərt

**17.1.** Sığortalı və onun nümayəndələri zərərin qarşısının alınması, yaxud onun minimuma endirilməsi üçün bütün zəruri tədbirləri görməlidir

**17.2.** Sığortalı yükün saxlanmasını və yük daşıyıcılarının, yaxud hər hansı üçüncü tərəfə qarşı subroqasiya hüququnun həyata keçirilməsini təmin etməlidir.

**18.** Hüquqdan imtina üzrə qeyd-şərt

Sığortalı yaxud Sığortaçının sığortalanmış yükün xilas etməsi, müdafiəsi, yaxud bərpa edilməsi üzrə görülən tədbirləri, onların öz hüquqlarından imtina etməsi yaxud Sığortaçının abandona razılıq verməsi və ya tərəflərdən hər hansı birinin hüquqlarının məhdudlaşdırılmasına razılıq əlaməti kimi qəbul olunmamalıdır.

## LƏNGİMƏLƏRİN QARŞISININ ALINMASI

**19.** Zərərin qarşısının alınması və ya həcminin azaldılması üzrə qeyd-şərt

Bu sığorta şərtlərinə görə Sığortalı ondan asılı olan bütün vəziyyətlərdə mümkün qədər tez və operativ hərəkət etməlidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**20.** Tətbiq olunacaq hüquq

Bu sığorta Azərbaycan Respublikası hüququ əsasında tənzim ediləcək.

**Qeyd** :Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda Sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

**YÜK SIĞORTASI ÜZRƏ QEYD-ŞƏRT B CL 253**

**SIĞORTA OLUNAN RİSKLƏR**

**1.** Bu sığorta, aşağıdakı 4,5,6 və 7–ci maddələrdə göstərilənlər istisna olmaqla, bütün risklərə münasibətdə sığorta təminatı verir.

**1.1** sığorta predmetinə aşağıdakılar nəticəsində ziyan vurulması və ya məhv olması

**1.1.1** yanğın və ya partlayış
**1.1.2** gəminin, bərənin və ya qayığın saya oturması, sahilə çıxması, batması və ya çevrilməsi
**1.1.3** yerüstü nəqliyyat vasitəsinin aşması və ya dəmir yolu xəttindən çıxması
**1.1.4** gəminin, bərənin və ya qayığın su nəqliyyatından başqa hər hansı digər xarici obyektlə toqquşması
**1.1.5** fəlakət limanında yükün boşaldılması
**1.1.6** zəlzələ, vulkan püskürməsi, ildırım

**1.2** sığorta predmetinə aşağıdakılar nəticəsində ziyan vurulması və ya məhv olması

**1.2.1** ümumi qəza zamanı bilərəkdən edilmiş itkilər
**1.2.2** gəminin qəza etmə təhlükəsi zamanı gəminin göyərtəsindən dənizə atılan yüklər və ya yükün gəmidən bayırda qalması
**1.2.3** gəmidə yük daşınan konteynerə və ya yükün saxlandığı yerə dəniz, göl, çay suyunun dolması
**1.2.4** bağlama yükün bayırda olarkən və ya gəmiyə yüklənməsi, boşaldılması zamanı düşməsi və ya itməsi nəticəsində tam zərər

**2.** Bu sığorta, daşıma müqaviləsi və/və ya müvafiq qanun və təcrübə əsasında müəyyən edilən və hesablanan, 4,5,6, və 7-ci bəndlərdə və ya bu sığortanın hər hansı başqa yerində əks olunmuş istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən baş verən itkinin qarşısının alınması məqsədi ilə çəkilən ümumi qəza və ya xilas etmə xərclərini əhatə edir.

**3.** Bu sığorta daşıma müqaviləsinin «Hər iki tərəfin günahına görə toqquşma haqqında» maddəsi üzrə, sığortalının, bu sığorta ilə əhatə olunan zərərlərlə əlaqədar yaranan məsuliyyətinin müvafiq hissəsi üçün sığorta təminatı verir. Göstərilmiş maddə üzrə gəmi sahibləri tərəfindən hər hansı tələbin irəli sürülməsi halında, sığortalı, bu haqda sığortaçıları məlumatlandırmağı öhdəsinə götürür. Sığortaçılar öz hesablarına Sığortalını bu cür tələblərə qarşı müdafiə etmək hüququna malikdirlər.

## İSTİSNALAR

**4.** Bu sığorta heç bir halda aşağıdakı sığorta təminatlarını əhatə etməyəcək:

**4.1** Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər
**4.2** Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta predmetinin təbii köhnəlməsi və ya axması.
**4.3** Sığorta predmetinin tam və ya düzgün qablaşdırılmaması və ya sığorta predmetinin hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər (bu 4.3-cü maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək).
**4.4** Sığorta predmetinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya çəkilmiş xərclər.
**4.5** Gecikmədən irəli gələn zərər, itki və ya xərclər, hətta belə gecikmə sığorta hadisəsi nəticəsində olmuşdursa (Yuxarıda təsbit edilmiş 2-ci maddənin əsasında ödənilməli olan xərclər istisna olmaqla).
**4.6** Gəmi sahiblərinin, icarəçilərinin və ya istismarçılarının ödəmə qabiliyyətini itirməsi və ya öz maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinin səbəb olduğu ziyan, itki və başqa xərclər.
**4.7** Sığorta predmetinə və ya onun hər hansı bir hissəsinə hər hansı şəxsin və ya şəxslərin qərəzli hərəkətləri nəticəsində ziyan dəyməsi və ya məhv edilməsi
**4.8** Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və ya birləşməsi və ya hər hansı başqa anoloji reaksiya olan və ya nüvə enerjisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

**5.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan, itki və ya xərcləri əhatə etməyəcək:

**5.1** Gəminin və ya bərənin istifadəyə yararlı vəziyətdə olmaması
**5.2** Konteynerin, gəminin, bərənin və ya hər hansı digər nəqliyyat vasitəsinin sığorta predmetini təhlükəsiz şəkildə daşımaq üçün yararlı vəziyətdə olmaması və ya uyğun olmaması
**5.3** Sığorta predmetinin yüklənməsi anında Sığortalının belə yararsızlıq və ya uyğunsuzluq haqqında məlumatının olması halında
**5.4** Gəminin yararlılığı və sığorta predmetini daşıması üçün uyğun olması ilə əlaqədar ehtimal olunan təminat yalnız o halda pozulmuş hesab ediləcək ki, Sığortalının və ya onun işçilərinin bu haqda məlumatı olsun.

**6.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək:

**6.1** Müharibə, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab və bunların və ya hər hansı düşmən qüvvəsinin istifadə etdiyi və ya bu qüvvəyə qarşı istifadə edilən hərbi əməliyyatların səbəb olduğu vətəndaş iğtişaşları

**6.2** İşğal, zəbt etmə, müsadirə, məhdudlaşdırma və ya saxlanılma və onların nəticələri və ya onları törədmək cəhdi.
**6.3** Tərk edilmiş minalar, torpedolar, partlayıcılar və başqa tərk edilmiş müharibə silahları

**7.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

**7.1** Tətillər, lokautlar, əmək münaqişələri, qiyamlar və vətəndaş iğtişaşları
**7.2** Tətil, lokaut, işçilərin kütləvi işdən azad edilməsindən və ya fəhlə iğtişaşlarında iştirak edən şəxslərin hərəkətlərindən, üsyan və ya ictimai iğtişaşlardan irəli gələn zərər və xərclər
**7.3** Hər hansı terrorçu və ya hər hansı şəxsin siyasi motivlərlə bağlı hərəkətləri nəticəsində yaranan itki, zərər və xərclər

## SIĞORTA MÜDDƏTİ

**8.** Tranzit keçiş üzrə qeyd-şərt

**8.1** Bu sığorta yük anbarlardan çıxarılan andan, yaxud müqavilədə göstərilən saxlanma yerindən çıxarıldığı andan qüvvəyə minir və daşımanın adi müddəti ərzində davam edir və aşağıdakı hallarda başa çatır:

**8.1.1** Müqavilədə göstərildiyi kimi yük, alan tərəfə çatdırıldıqda, yaxud digər son anbara, və ya müqavilədə qeyd olunan saxlanılma yerinə çatdırıldıqda.
**8.1.2** Təyinat vaxtından əvvəl, yaxud təyinat vaxtında digər hər hansı anbara, və ya saxlanma məntəqəsinə çatdırıldıqda. həmin yerlərin hər birini Sığortalı aşağıdakı məqsədlər üçün istifadə edir:

**8.1.2.1** adi yük daşımadan fərqli olaraq, saxlanma
**8.1.2.2** yerləşdirmə və ya bölüşdürmə və yaxud

**8.1.3** Sığortalanmış yükün gəmidən axırıncı boşaldılma limanında tam boşaldıldığı andan müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa 60 gün başa çatana qədər, hər hansının (boşaldılma və ya qoyulan günlük hədd) tez baş verdiyindən asılı olaraq.

**8.2** Əgər son boşaldılma limanında yük gəmidən boşaldıldıqdan sonra bu sığorta hələ qüvvədədirsə və yük başqa təyinat yerinə yola salınmalıdırsa, bu sığorta yalnız göstərilən digər daşınmanın başlanması anına qədər qüvvədə qalır.
**8.3** Sığortalıdan asılı olmayan səbəblərdən yük ləngidildikdə, yaxud marşrut dəyişdirildikdə, yaxud yenidən yükləndikdə, eləcə də nəqliyyat vasitəsi sahibi, yaxud nəqliyyat vasitəsini icarəyə götürənlər daşıma müqaviləsinə əsasən öz hüquqlarından istifadə edərək hər hansı dəyişikliklər apararlarsa, bu sığorta qüvvədə qalır. (Bu halda yuxarıda göstərilən xitam şərti və 9-cu maddənin şərtlərinə riayət olunur).

## SIĞORTA MÜQAVİLƏSİNİN BİTMƏ MÜDDƏTİ

**9.** Əgər Sığortalıdan asılı olmayan səbəblərdən yükdaşıma müqaviləsi başqa portda, yaxud məntəqədə başa çatarsa, yaxud yük təyinat yerinə çatdırılmazdan əvvəl başa çatarsa Sığortalı sığortaçıya bu barədə dərhal xəbər verib, sığortanın müddətini uzatmazsa bu sığortada başa çatmış hesab olunur.

**9.1** Yük satılmışdırsa və bu cür limana, yaxud məntəqəyə çatdırılmışdırsa, yaxud yük bu cür limana çatdırıldıqdan sonra 60 gün tamamlanana qədər (hər hansı tez baş verərsə), və yaxud

**9.2** Əgər yük qeyd olunan 60 gün ərzində, yaxud xüsusi olaraq razılaşdırılmış daha uzun müddət ərzində əvvəlcədən müəyyənləşdirilmiş təyinat yerinə, yaxud hər hansı digər təyinat yerinə daşındığı halda, sığorta təminatı 8-ci maddədə göstərilən səbəblərdən qurtara bilər.

## SIĞORTA MÜQAVİLƏSİNİN DƏYİŞDİRİLMƏSİ

**10.** Bu sığorta qüvvəyə mindikdən sonra sığortalı təyinat yerini dəyişərsə, o bu barədə dərhal sığortaçıya məlumat verir, müvafiq sığorta haqqı ödəyir və sığorta şərtlərində uyğun dəyişikliklər aparılır.

## İDDİALAR

**11.** Sığorta ödənişinin verilməsi

**11.1** Bu sığortaya görə ödəniş almaq üçün Sığortalının sığorta hadisəsi baş verdiyi andasığortalanmış predmetdə öz marağı olmalıdır.

**11.2** Maddə 11.1-də göstərilənlərə uyğun olaraq Sığortalı zərərin, sığorta müqaviləsinin bağlanmasından əvvəl baş verməsinə baxmayaraq sığorta təminatı müddəti ərzində sığorta ödənişini almaq hüququ vardır. Sığortalı zərər haqqında məlumatı olub Anderrayterin məlumatı olmadığı hallar istisna olunur.

**12.** Daşınma zamanı xərclər üzrə qeyd-şərt

Əgər bu sığortada risk nəticəsində yükdaşıma bu sığortada qeyd olunan yerdən fərqli limanda, yaxud məntəqədə başa çatarsa Sığortaçı Sığortalıya bütün zəruri və məqsədəuyğun şəkildə çəkilmiş boşaltma, saxlama və yükün sığortalanmış yerə qədər daşınma xərclərini ödəyir. Bu maddə ümumi qəza və xilasetmə üzrə xərclərə şamil olunmur və yuxarıda 4, 5, 6 və 7-ci maddələrdə göstərilən istisnalar qüvvədə qalır. Eləcə də Sığortalının, yaxud onun xidmətçisinin səhvi, səhlənkarlığı, ödəniş qabiliyyətli olmaması, yaxud maliyyə öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranan xərclərə görə sığorta təminatı verilmir.

**13.** Konstruktiv tam məhv olma üzrə qeyd-şərt

Sığortalının yükü tam məhv olduqda, Sığortaçı sığorta ödənişini, sığorta məbləğindən yuxarı olmamaq şərtilə həmin yükün sığorta hadisəsinin baş verdiyi tarixdəki həqiqi dəyərindən sığorta hadisəsindən sonrakı dəyəri çıxmaqla alınan məbləğ həcmində ödəyir.

**14.** İkili sığorta üzrə qeyd-şərt

**14.1** Əgər Sığortalı sığorta olunan yükü digər Sığortaçılarda sığortalamaqla sığorta məbləğini artırmışdırsa, bu halda sığortalanmış yükün ümumi qiyməti artırılmış olur.

**14.2** Əgər 14.1. bəndi baş verərsə, bu sığorta üzrə məsuliyyət həddi proporsional qaydada faktiki sığorta qiymətinin yükün ümumi qiymətinə olan nisbətində müəyyənləşdirilir. İddia baş qaldırdığı halda Sığortalı bütün digər sığorta müqavilələri üzrə sığortalanmış məbləğ haqqında Sığortaçıya məlumat verməlidir.

## BU SIĞORTA ÜZRƏ FAYDALANAN ŞƏXS

**15.** Bu sığorta yükdaşıyanın və ya yükün saxlanmasında məsul olan digər şəxsin mənafeyinə xidmət edə bilməz.

## ZƏRƏRİN MİNİMUMA ENDİRİLMƏSİ

**16.** Sığortalının məlumat vermə vəzifəsi üzrə qeyd-şərt

**16.1** Sığortalı və onun nümayəndələri zərərin qarşısının alınması, yaxud onun minimuma endirilməsi üçün bütün zəruri tədbirləri görməlidir.

**16.2** Sığortalı yükün saxlanmasını və yük daşıyıcılarının, yaxud hər hansı üçüncü tərəfə qarşı subroqasiya hüququnun həyata keçirilməsini təmin etməlidir.

**17.** Hüquqdan imtina üzrə qeyd-şərt

Sığortalı yaxud Sığortaçının sığortalanmış yükün xilas etməsi, müdafiəsi, yaxud bərpa edilməsi üzrə görülən tədbirləri, onların öz hüquqlarından imtina etməsi yaxud Sığortaçının abandona razılıq verməsi və ya tərəflərdən hər hansı birinin hüquqlarının məhdudlaşdırılmasına razılıq əlaməti kimi qəbul olunmamalıdır.

## LƏNGİMƏLƏRİN QARŞISININ ALINMASI

**18.** Zərərin qarşısının alınması və ya həcminin azaldılması üzrə qeyd-şərt

Bu sığorta şərtlərinə görə Sığortalı ondan asılı olan bütün vəziyyətlərdə mümkün qədər tez və operativ hərəkət etməlidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**19.** Tətbiq olunacaq hüquq

Bu sığorta Azərbaycan Respublikası hüququ əsasında tənzim ediləcək.

**Qeyd** :Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda Sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## YÜK SIĞORTASI ÜZRƏ QEYD-ŞƏRT C.CL 254

## SIĞORTA OLUNAN RİSKLƏR

**1.** Bu sığorta, aşağıdakı 4,5,6 və 7–ci maddələrdə göstərilənlər istisna olmaqla, bütün risklərə münasibətdə sığorta təminatı verir.

**1.1** sığorta predmetinə aşağıdakılar nəticəsində ziyan vurulması və ya məhv olması

**1.1.1** yanğın və ya partlayış
**1.1.2** gəminin, bərənin və ya qayığın saya oturması, sahilə çıxması, batması və ya çevrilməsi
**1.1.3** yerüstü nəqliyyat vasitəsinin aşması və ya dəmir yolu xəttindən çıxması
**1.1.4** gəminin, bərənin və ya qayığın su nəqliyyatından başqa hər hansı digər xarici obyektlə toqquşması
**1.1.5** fəlakət limanında yükün boşaldılması

**1.2** sığorta predmetinə aşağıdakılar nəticəsində ziyan vurulması və ya məhv olması

**1.2.1** ümumi qəza zamanı bilərəkdən edilmiş itkilər
**1.2.2** gəminin qəza etmə təhlükəsi zamanı gəminin göyərtəsindən dənizə atılan yüklər

**2.** Bu sığorta, daşıma müqaviləsi və ya müvafiq qanun və təcrübə əsasında müəyyən edilən və hesablanan, 4,5,6, və 7-ci bəndlərdə və ya bu sığortanın hər hansı başqa yerində əks olunmuş istisnalarda göstərilmiş səbəblərdən fərqli səbəblər üzündən baş verən itkinin qarşısının alınması məqsədi ilə çəkilən ümumi qəza və ya xilas etmə xərclərini əhatə edir.

**3.** Bu sığorta daşıma müqaviləsinin «Hər iki tərəfin günahına görə toqquşma haqqında» maddəsi üzrə, sığortalının, bu sığorta ilə əhatə olunan zərərlərlə əlaqədar yaranan məsuliyyətinin müvafiq hissəsi üçün sığorta təminatı verir. Göstərilmiş maddə üzrə gəmi

**4.** sahibləri tərəfindən hər hansı tələbin irəli sürülməsi halında, sığortalı, bu haqda sığortaçıları məlumatlandırmağı öhdəsinə götürür. Sığortaçılar öz hesablarına Sığortalını bu cür tələblərə qarşı müdafiə etmək hüququna malikdirlər.

## İSTİSNALAR

**5.** Bu sığorta heç bir halda aşağıdakı sığorta təminatlarını əhatə etməyəcək:

**5.1** Sığortalının qərəzli hərəkətlərinin səbəb olduğu itki, ziyan və başqa xərclər
**5.2** Təbii sızma, çəkinin və ya həcmin təbii itirilməsi, sığorta predmetinin təbii köhnəlməsi və ya axması.
**5.3** Sığorta predmetinin tam və ya düzgün qablaşdırılmaması və ya sığorta predmetinin hazırlanmasında qüsurların olması səbəbindən baş vermiş ziyan, itki və ya çəkilmiş xərclər (bu 4.3-cü maddənin məqsədləri üçün «qablaşdırma» sözü onun yalnız sığortanın qüvvəyə minməsindən əvvəl və Sığortalı və ya onun işçiləri tərəfindən həyata keçirilməsi halında konteynerdə yerləşdirmə mənasını verəcək).
**5.4** Sığorta predmetinin daxili qüsurları və ya təbii xassələrinin səbəb olduğu ziyan, itki və ya çəkilmiş xərclər.
**5.5** Gecikmədən irəli gələn zərər, itki və ya xərclər, hətta belə gecikmə sığorta hadisəsi nəticəsində olmuşdursa (Yuxarıda təsbit edilmiş 2-ci maddənin əsasında ödənilməli olan xərclər istisna olmaqla).
**5.6** Gəmi sahiblərinin, icarəçilərinin və ya istismarçılarının ödəmə qabiliyyətini itirməsi və ya öz maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinin səbəb olduğu ziyan, itki və başqa xərclər.
**5.7** Sığorta predmetinə və ya onun hər hansı bir hissəsinə hər hansı şəxsin və ya şəxslərin qərəzli hərəkətləri nəticəsində ziyan dəyməsi və ya məhv edilməsi
**5.8** Tərkibində hər hansı atom və ya nüvə bölgüsü və/və ya birləşməsi və ya hər hansı başqa anoloji reaksiya olan və ya nüvə enerjisi istifadə edilən silahın istifadəsinin səbəb olduğu ziyan, itki və ya xərclər.

**6.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan, itki və ya xərcləri əhatə etməyəcək:

**6.1** Gəminin və ya bərənin istifadəyə yararlı vəziyyətdə olmaması
**6.2** Konteynerin, gəminin, bərənin və ya hər hansı digər nəqliyyat vasitəsinin sığorta predmetini təhlükəsiz şəkildə daşımaq üçün yararlı vəziyyətdə olmaması və ya uyğun olmaması
**6.3** Sığorta predmetinin yüklənməsi anında Sığortalının belə yararsızlıq və ya uyğunsuzluq haqqında məlumatının olması halında
**6.4** Gəminin yararlılığı və sığorta predmetini daşıması üçün uyğun olması ilə əlaqədar ehtimal olunan təminat yalnız o halda pozulmuş hesab ediləcək ki, Sığortalının və ya onun işçilərinin bu haqda məlumatı olsun.

**7.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək:

**7.1** Müharibə, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab və bunların və ya hər hansı düşmən qüvvəsinin istifadə etdiyi və ya bu qüvvəyə qarşı istifadə edilən hərbi əməliyyatların səbəb olduğu vətəndaş iğtişaşları

**7.2** İşğal, zəbt etmə, müsadirə, məhdudlaşdırma və ya saxlanılma və onların nəticələri və ya onları törədmək cəhdi.

**7.3** Tərk edilmiş minalar, torpedolar, partlayıcılar və başqa tərk edilmiş müharibə silahları

**8.** Bu sığorta heç bir halda aşağıdakıların səbəb olduğu ziyan və ya itkini əhatə etməyəcək

**8.1** Tətillər, lokautlar, əmək münaqişələri, qiyamlar və vətəndaş iğtişaşları

**8.2** Tətil, lokaut, işçilərin kütləvi işdən azad edilməsindən və ya fəhlə iğtişaşlarında iştirak edən şəxslərin hərəkətlərindən, üsyan və ya ictimai iğtişaşlardan irəli gələn zərər və xərclər

**8.3** Hər hansı terrorçu və ya hər hansı şəxsin siyasi motivlərlə bağlı hərəkətləri nəticəsində yaranan itki, zərər və xərclər

## SIĞORTA MÜDDƏTİ

**9.** Tranzit keçiş üzrə qeyd-şərt

**9.1** Bu sığorta yük anbarlardan çıxarılan andan, yaxud müqavilədə göstərilən saxlanma yerindən çıxarıldığı andan qüvvəyə minir və daşımanın adi müddəti ərzində davam edir və aşağıdakı hallarda başa çatır:

**9.1.1** Müqavilədə göstərildiyi kimi yük, alan tərəfə çatdırıldıqda, yaxud digər son anbara, və ya müqavilədə qeyd olunan saxlanılma yerinə çatdırıldıqda.

**9.1.2** Təyinat vaxtından əvvəl, yaxud təyinat vaxtında digər hər hansı anbara, və ya saxlanma məntəqəsinə çatdırıldıqda. həmin yerlərin hər birini Sığortalı aşağıdakı məqsədlər üçün istifadə edir:

**9.1.2.1** adi yük daşımadan fərqli olaraq, saxlanma

**9.1.2.2** yerləşdirmə və ya bölüşdürmə və yaxud

**9.1.3** Sığortalanmış yükün gəmidən axırıncı boşaldılma limanında tam boşaldıldığı andan müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa 60 gün başa çatana qədər, hər hansının (boşaldılma və ya qoyulan günlük hədd) tez baş verdiyindən asılı olaraq.

**9.2** Əgər son boşaldılma limanında yük gəmidən boşaldıldıqdan sonra bu sığorta hələ qüvvədədirsə və yük başqa təyinat yerinə yola salınmalıdırsa, bu sığorta yalnız göstərilən digər daşınmanın başlanması anına qədər qüvvədə qalır.

**9.3**

**9.4** Sığortalıdan asılı olmayan səbəblərdən yük ləngidildikdə, yaxud marşrut dəyişdirildikdə, yaxud yenidən yükləndikdə, eləcə də nəqliyyat vasitəsi sahibi, yaxud nəqliyyat vasitəsini icarəyə götürənlər daşıma müqaviləsinə əsasən öz hüquqlarından istifadə edərək hər hansı dəyişikliklər apararlarsa, bu sığorta qüvvədə qalır. (Bu halda yuxarıda göstərilən xitam şərti və 9-cu maddənin şərtlərinə riayət olunur).

## SIĞORTA MÜQAVİLƏSİNİN BİTMƏ MÜDDƏTİ

**10.** Əgər Sığortalıdan asılı olmayan səbəblərdən yükdaşıma müqaviləsi başqa portda, yaxud məntəqədə başa çatarsa, yaxud yük təyinat yerinə çatdırılmazdan əvvəl başa çatarsa Sığortalı sığortaçıya bu barədə dərhal xəbər verib, sığortanın müddətini uzatmazsa bu sığortada başa çatmış hesab olunur.

**10.1** Yük satılmışdırsa və bu cür limana, yaxud məntəqəyə çatdırılmışdırsa, yaxud yük bu cür limana çatdırıldıqdan sonra 60 gün tamamlanana qədər (hər hansı tez baş verərsə), və yaxud

**10.2** Əgər yük qeyd olunan 60 gün ərzində, yaxud xüsusi olaraq razılaşdırılmış daha uzun müddət ərzində əvvəlcədən müəyyənləşdirilmiş təyinat yerinə, yaxud hər hansı digər təyinat yerinə daşındığı halda, sığorta təminatı 8-ci maddədə göstərilən səbəblərdən qurtara bilər.

## SIĞORTA MÜQAVİLƏSİNİN DƏYİŞDİRİLMƏSİ

**11.** Bu sığorta qüvvəyə mindikdən sonra Sığortalı təyinat yerini dəyişərsə, o bu barədə dərhal Sığortaçıya məlumat verir, müvafiq sığorta haqqı ödəyir və sığorta şərtlərində uyğun dəyişikliklər aparılır.

## İDDİALAR

**12.** Sığorta ödənişinin verilməsi

**12.1** Bu sığortaya görə ödəniş almaq üçün Sığortalının sığorta hadisəsi baş verdiyi anda sığortalanmış predmetdə öz marağı olmalıdır.

**12.2** Maddə 11.1-də göstərilənlərə uyğun olaraq Sığortalı zərərin, sığorta müqaviləsinin bağlanmasından əvvəl baş verməsinə baxmayaraq sığorta təminatı müddəti ərzində sığorta ödənişini almaq hüququ vardır. Sığortalı zərər haqqında məlumatı olub Anderrayterin məlumatı olmadığı hallar istisna olunur.

**13.** Daşınma zamanı xərclər üzrə qeyd-şərt

Əgər bu sığortada risk nəticəsində yükdaşıma bu sığortada qeyd olunan yerdən fərqli limanda, yaxud məntəqədə başa çatarsa Sığortaçı Sığortalıya bütün zəruri və məqsədəuyğun şəkildə çəkilmiş boşaltma, saxlama və yükün sığortalanmış yerə qədər daşınma xərclərini

ödəyir. Bu maddə ümumi qəza və xilasetmə üzrə xərclərə şamil olunmur və yuxarıda 4, 5, 6 və 7-ci maddələrdə göstərilən istisnalar qüvvədə qalır. Eləcə də Sığortalının, yaxud onun xidmətçisinin səhvi, səhlənkarlığı, ödəniş qabiliyyətli olmaması, yaxud maliyyə öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranan xərclərə görə sığorta təminatı verilmir.

**14.** Konstruktiv tam məhv olma üzrə qeyd-şərt

Sığortalının yükü tam məhv olduqda, Sığortaçı sığorta ödənişini, sığorta məbləğindən yuxarı olmamaq şərtilə həmin yükün sığorta hadisəsinin baş verdiyi tarixdəki həqiqi dəyərindən sığorta hadisəsindən sonrakı dəyəri çıxmaqla alınan məbləğ həcmində ödəyir.

**15.** İkili sığorta üzrə qeyd-şərt

**15.1** Əgər Sığortalı sığorta olunan yükü digər Sığortaçılarda sığortalamaqla sığorta məbləğini artırmışdırsa, bu halda sığortalanmış yükün ümumi qiyməti artırılmış olur.

**15.2** Əgər 14.1. bəndi baş verərsə, bu sığorta üzrə məsuliyyət həddi proporsional qaydada faktiki sığorta qiymətinin yükün ümumi qiymətinə olan nisbətində müəyyənləşdirilir. İddia baş qaldırdığı halda Sığortalı bütün digər sığorta müqavilələri üzrə sığortalanmış məbləğ haqqında Sığortaçıya məlumat verməlidir.

## BU SIĞORTA ÜZRƏ FAYDALANAN ŞƏXS

**16.** Bu sığorta yükdaşıyanın və ya yükün saxlanmasında məsul olan digər şəxsin mənafeyinə xidmət edə bilməz.

## ZƏRƏRİN MİNİMUMA ENDİRİLMƏSİ

**17.** Sığortalının məlumat vermə vəzifəsi üzrə qeyd-şərt

**17.1** Sığortalı və onun nümayəndələri zərərin qarşısının alınması, yaxud onun minimuma endirilməsi üçün bütün zəruri tədbirləri görməlidir.

**17.2** Sığortalı yükün saxlanmasını və yük daşıyıcılarının, yaxud hər hansı üçüncü tərəfə qarşı subroqasiya hüququnun həyata keçirilməsini təmin etməlidir.

**18.** Hüquqdan imtina üzrə qeyd-şərt

Sığortalı yaxud Sığortaçının sığortalanmış yükün xilas etməsi, müdafiəsi, yaxud bərpa edilməsi üzrə görülən tədbirləri, onların öz hüquqlarından imtina etməsi yaxud Sığortaçının abandona razılıq verməsi və ya tərəflərdən hər hansı birinin hüquqlarının məhdudlaşdırılmasına razılıq əlaməti kimi qəbul olunmamalıdır.

## LƏNGİMƏLƏRİN QARŞISININ ALINMASI

**19.** Bu sığorta şərtlərinə görə Sığortalı ondan asılı olan bütün vəziyyətlərdə mümkün qədər tez və operativ hərəkət etməlidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**20.** Tətbiq olunacaq hüquq

Bu sığorta Azərbaycan Respublikası hüququ əsasında tənzim ediləcək.

**Qeyd** :Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda Sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## YÜK SIĞORTASI ÜZRƏ QEYD-ŞƏRT CL 255 – MÜHARİBƏ

## SIĞORTA OLUNAN RİSKLƏR

**1.** Bu sıgorta müqaviləsi, aşağıdakı 3-cü və 4-cü Maddələrdə müəyyən olunan hal istisna olmaqla, sığorta olunmuş obyektlə bağlı aşağıdakıların səbəb olduğu itki və ya ziyanı əhatə edir:

**1.1** müharibə, vətəndaş müharibəsi, inqilab, qiyam, üsyan və ya onlardan meydana gələn mülki mübahisə, yaxud aqressiv gücün və ya ona qarşı hər hansı düşməncəsinə hərəkət;
**1.2** yuxarıdakı 1.1 bəndinə əsasən sığorta olunan risklərdən meydana gələn tutulma, müsadirə, həbs, azadlıqdan məhrum etmə və ya saxlanma, habelə onların nəticələri və hədə-qorxuya cəhd;
**1.3** nəzarətsiz qalmış (atılmış) minalar, torpedolar, bombalar və ya atılmış hərbi silahlar.

**2.** Bu sığorta müqaviləsi kirələmə müqaviləsinə və/ və ya hökümətin qanununa və prosessual normalarına əsasən nizamlanan və ya müəyyən olunan, bu maddələrə əsasən sığorta olunan riskdən meydana gələn itkiyə yol verməmək və ya itkiyə yol verilməməsi üçün çəkilmiş olan ümumi qəza və xilasetmə xərclərini əhatə edir.

## İSTİSNALAR

**3.** Bu sığorta heç bir halda aşağıdakı sığorta təminatlarını əhatə etməyəcək:

**3.1** sığorta olunanın qəsdən yol verdiyi pis davranışına aid edilən itki, ziyan və ya xərc;
**3.2** sığorta olunmuş predmetin adi sızması, çəkisində və ya həcmində baş verən adi itki, yaxud adi köhnəlmə;
**3.3** sığorta olunmuş predmetin qablaşdırma və ya hazırlanmasının qeyri-qənaətbəxş olmasının və ya uyğunsuzluğunun səbəb olduğu itki, ziyan və ya xərc (Bu 3.3 maddəsinin məqsədi üçün “qablaşdırma” sözünə konteynerə və ya qaldırıcı vaqona yerləşdirmənin daxil olduğu hesab olunur, lakin yalnız o zaman ki bu cür yerləşdirmə

bu sığorta üzrə məsuliyyətin başlanmasından əvvəl, yaxud sığorta olunan və ya onun xidmətçiləri tərəfindən həyata keçirilmişdir.);

**3.4** sığorta olunmuş predmetin ayrılmaz qüsuru və ya xarakterindən baş verən itki, ziyan və ya xərc;

**3.5** gecikmənin biləvasitə səbəb olduğu itki, ziyan və ya xərc, hətta əgər gecikmə sığorta olunmuş risk nəticəsində baş vermişdirsə (yuxarıdakı 2-ci Maddəyə əsasən ödənilməli olan xərclərdən başqa)

**3.6** gəmi sahiblərinin, menecerlərinin, kirəçilərinin və ya operatorlarının ödəmə qabiliyyətini itirməsi və ya maliyyə öhdəliklərinin yerinə yetirməməsindən meydana gələn itki, ziyan və ya xərc;

**3.7** səfər və ya sərgüzəştin itkisinə və ya uğursuz olmasına əsaslanan hər hansı iddia;

**3.8** atom, nüvə parçalanması və/ və ya birləşməsi, yaxud başqa oxşar reaksiya və ya radioaktiv qüvvəyə malik maddəni istifadə edən hər hansı hərbi silahın düşməncəsinə istifadəsindən meydana gələn itki, ziyan və ya xərc;

**4.** Dənizə əlverişli və yükə uyğun olmayan daşıma üzrə qeyd-şərt

**4.1** Heç bir halda bu sığorta gəminin dənizdə üzməyə yararlı olmamasından, gəminin daşıma konteynerinin və ya qaldırıcı vaqonunun sığortalanmış predmetin etibarlı (təhlükəsiz) daşınması üçün yararsız olmasından (harada ki, sığorta olunan və ya onun xidmətçiləri sığorta olunmuş predmet gəmilərə yüklənərkən gəminin dənizdə üzməyə yararsız olmasından və ya daşıma üçün yararsız olmasından xəbərdar olmuşdur) meydana gələn itki, ziyan və ya xərcləri əhatə etmir.

**4.2** sığorta olunan və ya onun xidmətçiləri gəminin dənizdə üzməyə yararsız olmasından və ya yükün daşınması üçün yararsız olmasından xəbərdardar olmadıqda, Sığortaçılargəminin dənizdə üzmək üçün yararlı olması və gəminin sığorta olunmuş predmeti daşıması üçün yararlı olması barədə nəzərdə tutulan zəmanətlərin hər hansı pozulmasına görə tələbdən imtina edirlər.

## DAVAMETMƏ MÜDDƏTİ

**5.** Tranzit keçiş üzrə qeyd-şərt

**5.1** Bu sığorta şəhadətnaməsi:

**5.1.1** yalnız sığorta olunmuş predmet və ya onun hər hansı hissəsi xarici gəmiyə yüklənərkən başlayır və

**5.1.2** sığorta olunmuş predmet və ya onun bir hissəsi son boşaltma limanında xarici gəmidən boşaldıldıqda, yaxud gəminin son boşaltma limanına gəldiyi gündən hesablanmaqla 15 gün tamam olduqda, hansı birinci baş verərsə başa çatır;

Buna baxmayaraq, əlavə sığorta haqqı ödənilməklə və Sığortaçılara dərhal bildiriş verməklə, bu cür sığorta

**5.1.3** son boşaltma limanında yükü boşaltmadan gəmi oradan üzüb gedərkən yenidən başlayır və

**5.1.4** aşağıdakı 5.2 və 5.3 bəndləri nəzərə alınmaqla, ya sığorta olunmuş predmet və ya onun hər hansı hissəsi bundan sonra son boşaltma limanında və ya yerində boşaldılarkən, ya da gəminin son boşaltma limanına və ya yerinə, yaxud gəminin əvəzedici son boşaltma limanına və ya yerinə təkrar qayıtdığı gün gecə yarısından başlayaraq hesablanmaqla 15 gün başa çatdıqda, hansı daha tez baş verərsə başa çatır.

**5.2** əgər sığorta olunmuş səfər müddətində xarici gəmi və ya təyyarə ilə sonrakı daşınma üçün xarici gəmi sığorta olunmuş predmeti boşaltmaq üçün aralıq boşaltma limanına və ya yerinə gələrsə, yaxud mallar sığınacaq limanında və ya yerdə gəmidən boşaldılarsa onda, aşağıdakı 5.3 bəndi nəzərə alınmaqla və tələb oldunduğu halda əlavə sığorta haqqı ödənilməklə, bu sığorta müqaviləsi gəminin bu cür liman və ya yerə gəldiyi gün gecə yarısından başlayaraq hesablanmaqla 15 gün başa çatanadək davam edir, lakin bundan sonra sığorta olunmuş predmet və ya onun hissəsi sonrakı daşınma üçün xarici gəmiyə və ya təyyarəyə yükləndikdə yenidən başlayır. Boşaltmadan sonra 15 günlük müddət ərzində yalnız sığorta olunmuş predmet və ya onun hissəsi bu cür liman və ya yerdə qaldıqda sığorta qüvvədə qalır. Lakin əgər mallar qeyd olunan 15 günlük dövr ərzində daha sonra daşınarsa və ya əgər sığorta bu 5.2 maddəsində nəzərdə tutulduğu kimi yenidən başlayarsa:

**5.2.1** əgər sonradan daşınma xarici gəmi ilə həyata keçirilərsə, bu maddələrin şərtləri nəzərə alınmaqla bu sığorta davam edir və ya

**5.2.2** əgər sonradan daşınma təyyarə ilə həyata keçirilərsə, institutun Müharibə haqqında cari maddələrinin (hava ilə daşınan yük - poçtla göndərmə istisna olmaqla) bu sığortanın bir hissəsini təşkil etdiyi hesab olunur və hava ilə sonradan daşınmaya tətbiq olunur.

**5.3** əgər daşınma haqqında müqavilədə səfər orada razılaşdırıldığından fərqli olan liman və ya yerdə başa çatarsa, bu cür liman və ya yer son boşaltma limanı hesab olunur və bu cür sıgorta 5.1.2. bəndinə uyğun olaraq başa çatır. Əgər sığorta olunmuş predmet sonradan ilkin və ya hər hansı basqa təyinat yerinə göndərilərsə, onda bu cür sonrakı daşınma başlanmazdan qabaq Sığortaçılara bildiriş verməklə və əlavə sığorta haqqı ödəməklə həyata keçirilir. Bu cür sığorta aşağıdakı hallarda yenidən başlayır:

**5.3.1** sığorta olunmuş predmet boşaldıldığı halda, sığorta olunan predmet və ya onun hissəsi sonradan daşınmaq üçün nəzərdə tutulmuş gəmiyə yükləndikdə;

**5.3.2** sığorta olunmuş predmet boşaldılmadığı halda, gəmi bu cür son boşaltma limanından üzüb getdikdə bu cür sığorta 5.1.4. bəndinə uyğun olaraq başa çatır.

**5.4** üzən və ya suyun altında olan mina və atılmış torpedolarla bağlı risklərə qarşı sığorta, sığortalanmış predmet və ya onun hər hansı hissəsi xarici gəmiyə və ya gəmidən daşınma zamanı gəmidə olduqda uzadılır, lakin heç bir halda Sığortaçılar tərəfindən xüsusi olaraq başqa cür razılaşdırılmadıqda, xarici gəmidən boşaldıldıqdan sonra 60 günlük dövrü aşmır.

**5.5** Sığortaçılara dərhal bildiriş verməklə və tələb olunan əlavə sığorta haqqı ödəməklə, bu sığorta kirələmə müqaviləsinə əsasən gəmi sahiblərinə və ya kirəçilərə verilən azadlığın istifadə olunmasından meydana gələn hər hansı kənara çıxma və ya riskin hər hansı dəyişdiyi müddətdə bu maddələrin şərtləri daxilində qüvvədə qalır.

(5-ci maddənin məqsədi üçün “gəlmə” o deməkdir ki, gəmi limanın səlahiyyət sahəsi daxilində lövbər salmış, yan almış və ya körpüdə, başqa yerdə başqa cür bərkidilmişdir. Əgər bu cür körpü və ya yer yoxdursa, gəlmə o zaman baş vermiş hesab olunur ki, gəmi ilk dəfə nəzərdə tutulan boşaltma limanında və ya yerində, yaxud onun xaricində lövbər salır, yan alır və ya başqa cür bərkidilir, “xarici gəmi” dedikdə predmeti bir limandan və ya yerdən başqasına aparan gəmi nəzərdə tutulur ki, bu halda bu cür səfər zamanı gəmi dənizdən keçməli olur.)

**6.** Bu sığorta başlandıqdan sonra təyinat yeri sığorta olunan tərəfindən dəyişdirilərsə, Sığortaçılara dərhal bildiriş verilmək şərtilə, daha yüksək qiymətlə və şərtlərlə əhatə olunan məbləğtutma barədə razılıq əldə olunmalıdır.

**7.** Bu müqavilədə ifadə olunan, 3.7, 3.8 və ya 5-ci maddələri ilə uyğun olmayan istənilən hal bu cür uyğunsuzluq həddinədək qanuni hüququnu itirmiş hesab olunur.

## İDDİALAR

**8.** Sığortalanan mənfəət üzrə qeyd-şərt

**8.1** Bu sığorta müqaviləsinə əsasən itkiləri bərpa etmək üçün, sığorta olunan itkinin baş verdiyi vaxtda sığorta olunan predmetdə marağa (paya) malik olmalıdır.

**8.2** Yuxarıdakı 8.1-ci maddə nəzərə alınmaqla, sığorta olunanın itki barədə məlumatlı olduğu, Sığortaçıların isə məlumatlı olmadığı halında itkinin sığorta haqqında müqavilə bağlanmazdan əvvəl baş verməsinə baxmayaraq, sığorta olunan bu sığorta ilə əhatə olunan dövr ərzində baş vermiş sığortalanmış itkini bərpa etmək hüququna malikdir.

**9.** Artan dəyər üzrə qeyd-şərt

**9.1** Əgər sığorta olunan tərəfindən bu sənədə əsasən sığorta olunmuş mal üçün artırılmış dəyərli sığorta həyata keçirilərsə, malın razılaşdırılmış dəyəri bu sığortaya əsasən sığorta olunmuş ümumi məbləğədək artırılmış hesab olunur və itkini əhatə edən bütün artırılmış dəyər sığortaları, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür ümumi sığorta olunmuş məbləğə aidiyyətinə proporsional olur.

**9.2** Sığorta artırılmış məbləğ üzrə olduqda, aşağıdakı maddə tətbiq olunur:

Yükün razılaşdırılmış dəyəri ilkin sığortaya əsasən sığorta olunmuş ümumi məbləğə bərabər hesab olunur və itkini əhatə edən və sıgorta olunan tərəfindən yük üzrə həyata keçirilən bütün artırılmış dəyər üzrə sığorta məbləğləri, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür sığorta olunmuş ümumi məbləğə aidiyyətinə proporsional olur. İddia meydana gəldiyi halda, sığorta olunan bütün başqa sığorta müqavilələri ilə sığorta olunan məbləğlərin sübutunu Sığortaçılara təqdim edir.

## BU SIĞORTA ÜZRƏ FAYDALANAN ŞƏXS

**10.** Bu sığorta yükdaşıyanın və ya yükün saxlanmasında məsul olan digər şəxsin mənafeyinə xidmət edə bilməz.

## ZƏRƏRİN MİNİMUMA ENDİRİLMƏSİ

**11.** Sığortalının məlumat vermə vəzifəsi üzrə qeyd-şərt

Sığorta olunan və onun xidmətçiləri, habelə agentləri bu sənədə əsasən bərpa olunmalı olan itki ilə əlaqədar aşağıdakıları etməyə borcludurlar:

**11.1** Bu cür itkinin qarşısının alınması və ya onun minimuma endirilməsi üçün lazım ola biləcək tədbirləri görmək və

**11.2** Yük daşıyıcılarına, yükün saxlanılmaq üçün verilmiş olduğu başqa məsul şəxslərə və ya üçüncü tərəflərə qarşı bütün hüquqların lazımi qaydada qorunmasını və həyata keçirilməsini təmin etmək; bütün Sığortaçılar, bu sənədə əsasən bərpa olunmalı olan hər hansı itkiyə əlavə olaraq bu vəzifələrin həyata keçirilməsi ilə bağlı Sığorta olunanın lazımi və əsaslandırılmış qaydada çəkmiş olduğu hər hansı xərcləri kompensasiya edir.

**12.** Hüquqdan imtina üzrə qeyd-şərt

Sığortalı yaxud Sığortaçının sığortalanmış yükün xilas etməsi, müdafiəsi, yaxud bərpa edilməsi üzrə görülən tədbirləri, onların öz hüquqlarından imtina etməsi yaxud Sığortaçının abandona razılıq verməsi və ya tərəflərdən hər hansı birinin hüquqlarının məhdudlaşdırılmasına razılıq əlaməti kimi qəbul olunmamalıdır.

## LƏNGİMƏLƏRİN QARŞISININ ALINMASI

**13.** Bu sığorta şərtlərinə görə Sığortalı ondan asılı olan bütün vəziyyətlərdə mümkün qədər tez və operativ hərəkət etməlidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**14.** Tətbiq olunacaq hüquq

Bu sığorta Azərbaycan Respublikası hüququ əsasında tənzim ediləcək.

**Qeyd** :Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda Sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## YÜK SIĞORTASI ÜZRƏ QEYD-ŞƏRT CL 256 – TƏTİL

## SIĞORTA OLUNAN RİSKLƏR

**1.** Bu sığorta, aşağıdakı 3 və 4-cü maddələrdə nəzərdə tutulanlardan başqa, aşağıdakıların səbəb olduğu sığorta olunmuş predmetə vurulan itki və ya ziyanı əhatə edir:

**1.1** Tətilçilər, işdən xaric olunmuş isçilər və ya əmək intizamsızlığında iştirak edən şəxslər, qiyamlar və ya mülki həyəcan (qarışıqlıqlar);
**1.2** Hər hansı terrorist və ya siyasi motivdən çıxış edən hər hansı şəxs.

**2.** Bu sığorta müqaviləsi kirələmə müqaviləsinə və/ və ya hökümətin qanununa və prosessual normalarına əsasən nizamlanan və ya müəyyən olunan, bu maddələrə əsasən sığorta olunan riskdən meydana gələn itkiyə yol verməmək və ya itkiyə yol verilməməsi üçün çəkilmiş olan ümumi qəza və xilasetmə xərclərini əhatə edir.

## İSTİSNALAR

**3.** Bu sığorta heç bir halda aşağıdakı sığorta təminatlarını əhatə etməyəcək:

**3.1** Sığorta olunanın qəsdən yol verdiyi pis davranışına aid edilən itki, ziyan və ya xərc;
**3.2** Sığorta olunmuş predmetin adi sızması, çəkisində və ya həcmində baş verən adi itki, yaxud adi köhnəlmə;
**3.3** Sığorta olunmuş predmetin qablaşdırma və ya hazırlanmasının qeyri-qənaətbəxş olmasının və ya uyğunsuzluğunun səbəb olduğu itki, ziyan və ya xərc (Bu 3.3 maddəsinin məqsədi üçün “qablaşdırma” sözünə konteynerə və ya qaldırıcı vaqona yerləşdirmənin daxil olduğu hesab olunur, lakin yalnız o zaman ki bu cür yerləşdirmə bu sığorta üzrə məsuliyyətin başlanmasından əvvəl, yaxud sığorta olunan və ya onun xidmətçiləri tərəfindən həyata keçirilmişdir.);
**3.4** Sığorta olunmuş predmetin ayrılmaz qüsuru və ya xarakterindən baş verən itki, ziyan və ya xərc;
**3.5** Gecikmənin biləvasitə səbəb olduğu itki, ziyan və ya xərc, hətta əgər gecikmə sığorta olunmuş risk nəticəsində baş vermişdirsə (yuxarıdakı 2-ci Maddəyə əsasən ödənilməli olan xərclərdən başqa)
**3.6** Gəmi sahiblərinin, menecerlərinin, kirəçilərinin və ya operatorlarının ödəmə qabiliyyətini itirməsi və ya maliyyə öhdəliklərinin yerinə yetirməməsindən meydana gələn itki, ziyan və ya xərc;
**3.7** Hər hansı tətil, lokaut (sahibkarlar tərəfindən müəssisənin bağlanması və isçilərin öz tələblərini geri götürməyə məcbur edilməsi üçün isçilərin kütləvi şəkildə işdən azad edilməsi), əmək intizamsızlığı, qiyam və ya mülki iğtişaşlardan meydana gələn itki, ziyan və ya xərc;
**3.8** Səfər və ya sərgüzəştin itkisinə və ya uğursuz olmasına əsaslanan hər hansı iddia;

**3.9** Atom, nüvə parçalanması və/ və ya birləşməsi, yaxud başqa oxşar reaksiya və ya radioaktiv qüvvəyə malik maddəni istifadə edən hər hansı hərbi silahın düşməncəsinə istifadəsindən meydana gələn itki, ziyan və ya xərc;

**3.10** Müharibə, vətəndaş müharibəsi, inqilab, üsyan, qiyam, yaxud onlardan meydana gələn mülki çarpışma, yaxud aqressiv güc tərəfindən və ya ona qarşı hər hansı düşməncəsinə hərəkət.

**4.** Dənizə əlverişli və yükə uyğun olmayan daşıma üzrə qeyd-şərt

**4.1** Heç bir halda bu sığorta gəminin dənizdə üzməyə yararlı olmamasından, gəminin daşıma konteynerinin və ya qaldırıcı vaqonunun sığortalanmış predmetin etibarlı (təhlükəsiz) daşınması üçün yararsız olmasından (harada ki, sığorta olunan və ya onun xidmətçiləri sığorta olunmuş predmet gəmilərə yüklənərkən gəminin dənizdə üzməyə yararsız olmasından və ya daşıma üçün yararsız olmasından xəbərdar olmuşdur) meydana gələn itki, ziyan və ya xərcləri əhatə etmir.

**4.2** Sığorta olunan və ya onun xidmətçiləri gəminin dənizdə üzməyə yararsız olmasından və ya yükün daşınması üçün yararsız olmasından xəbərdardar olmadıqda, Sığortaçılar gəminin dənizdə üzmək üçün yararlı olması və gəminin sığorta olunmuş predmeti daşıması üçün yararlı olması barədə nəzərdə tutulan zəmanətlərin hər hansı pozulmasına görə tələbdən imtina edirlər.

## DAVAMETMƏ MÜDDƏTİ

**5.** Tranzit keçiş üzrə qeyd-şərt

**5.1** Bu sığorta daşınmanın başlanması üçün malın burada qeyd olunan anbarı və ya başqa saxlanma yerini tərk etdiyi vaxtdan başlayır və standart (adi) daşınma dövründə davam edir və aşağıdakı hallarda başa çatır:

**5.1.1** Mal alıcının anbarına və ya burada qeyd olunan başqa son anbara və ya saxlanma yerinə çatdırıldıqda;

**5.1.2** Mal sığorta olunanın istifadə etmək üçün seçdiyi, burada qeyd olunan təyinat yerindən qabaq və ya həmin yerdə, hər hansı başqa anbara və ya saxlanma yerinə çatdırıldıqda:

**5.1.2.1** standart daşınma prosesindən fərqli olan saxlanma üçün və ya

**5.1.2.2** paylanma üçün və ya

**5.1.2.3** son boşaltma limanında bununla sığorta olunan malların xarici gəmidən boşaldılmasının başa çatmasından sonra 60 gün başa çatdıqda, hansı birinci baş verərsə.

**5.2** Əgər son boşaltma limanında xarici gəmidən boşaltmadan sonra, lakin bu sığortanın ləğv olunmasından əvvəl mallar onların bu sənədə əsasən sığorta olunduğundan fərqli olan təyinat yerinə göndərilməlidirlərsə, bu sığorta, yuxarıda qeyd olunduğu kimi ləğv

**5.3** olunmaya məruz qalmaqda qaldığı dövrdə, bu cür başqa təyinat yerinə daşınmanın başlanma xaricinə genişlənmir.

**5.4** Bu sığorta Sığortalının nəzarətindən kənar olan gecikmə (yuxarıda qeyd olunduğu kimi ləğv olunma və aşağıdakı 6-cı maddənin müddəaları nəzərə alınmaqla), hər hansı kənara çıxma, məcburi boşaltma, başqa yerə göndərmə və ya başqa yerə boşaltma müddətində, habelə kirələmə müqaviləsinə əsasən gəmi sahiblərinə və ya kirəçilərinə verilmiş hüququn (azadlığı) həyata keçirilməsindən meydana gələn hər hansı riskin (təsadüfi hadisənin) dəyişdiyi müddətdə qüvvədə qalır.

**6.** Daşıma müqaviləsinin bitməsi üzrə qeyd-şərt

Əgər Sığorta olunanın nəzarətindən xaricdə olan şəraitdə daşıma haqqında müqavilə orada qeyd olunan təyinat yerindən fərqli olan yerdə və ya limanda başa çatarsa, yaxud daşınma yuxarıdakı 5-ci maddədə nəzərdə tutulduğu kimi malların çatdırılmasından qabaq başqa cür başa çatarsa, onda aşağıdakı müddətlərdə Sığortaçılara dərhal bildiriş verilmədikdə və sığortanın davam etdirilməsi xahiş olunmadıqda bu zaman Sığortaçı tərəfindən tələb olunduğu halda əlavə sığorta haqqı ödənilməklə sığorta qüvvədə qalır. Bu sıgorta aşağıdakı hallarda ləğv olunur:

**6.1** Mallar satılaraq və bu cür limana və ya yerə çatdırılanadək, yaxud xüsusi olaraq başqa cür razılaşdırılmadıqda, bununla sığorta olunan malların bu cür limana və ya yerə gəlib çatdığı vaxtdan sonra 60 gün keçənədək, hansı daha tez baş verərsə, və ya

**6.2** Əgər mallar qeyd olunan 60 günlük dövr ərzində (və ya hər hansı başqa razılaşdırılmış dövrdə) burada qeyd olunan təyinat yerinə və ya hər hansı başqa təyinat yerinə göndərilərsə, yuxarıdakı 5-ci maddənin şərtlərinə uyğun olaraq ləğv olunduqda.

**7.** Bu sığorta qüvvəyə mindikdən sonra təyinat yeri Sığorta olunan tərəfindən dəyişdirilərsə, Sığortaçılara dərhal bildiriş verilmək şərtilə, daha yüksək qiymətlə və şərtlərlə əhatə olunan məbləğ tutma barədə razılıq əldə olunmalıdır.

## İDDİALAR

**8.** Sığortalanan mənfəət üzrə qeyd-şərt

**8.1** Bu sığorta müqaviləsinə əsasən itkiləri bərpa etmək üçün, sığorta olunan itkinin baş verdiyi vaxtda sığorta olunan predmetdə marağa (paya) malik olmalıdır.

**8.2** Yuxarıdakı 8.1-ci maddə nəzərə alınmaqla, Sığorta olunan bu sığorta ilə əhatə olunan müddət ərzində baş verən sığortalanmış itkini bərpa etmək hüququna malik olur, baxmayaraq ki, itki sığorta haqqında müqavilə bağlanmazdan əvvəl baş vermişdir, lakin Sığorta olunanın itki barədə məlumatlı olduğu və Sığortaçıların isə məlumatlı olmadığı hal istisna olunur.

**9.** Artan dəyər üzrə qeyd-şərt

**9.1** Əgər sığorta olunan tərəfindən bu sənədə əsasən sığorta olunmuş mal üçün artırılmış dəyərli sığorta həyata keçirilərsə, malın razılaşdırılmış dəyəri bu sığortaya əsasən sığorta olunmuş ümumi məbləğədək artırılmış hesab olunur və itkini əhatə edən bütün artırılmış dəyər sığortaları, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür ümumi sığorta olunmuş məbləğə aidiyyətinə proporsional olur.

**9.2** Sığorta artırılmış məbləğ üzrə olduqda, aşağıdakı maddə tətbiq olunur:

Yükün razılaşdırılmış dəyəri ilkin sığortaya əsasən sığorta olunmuş ümumi məbləğə bərabər hesab olunur və itkini əhatə edən və sığorta olunan tərəfindən yük üzrə həyata keçirilən bütün artırılmış dəyər üzrə sığorta məbləğləri, habelə bu sığorta üzrə məsuliyyət burada sığorta olunan məbləğin bu cür sığorta olunmuş ümumi məbləğə aidiyyətinə proporsional olur. İddia meydana gəldiyi halda, sığorta olunan bütün başqa sığorta müqavilələri ilə sığorta olunan məbləğlərin sübutunu Sığortaçılara təqdim edir.

## BU SIĞORTA ÜZRƏ FAYDALANAN ŞƏXS

**10.** Bu sığorta yükdaşıyanın və ya yükün saxlanmasında məsul olan digər şəxsin mənafeyinə xidmət edə bilməz.

## ZƏRƏRİN MİNİMUMA ENDİRİLMƏSİ

**11.** Sığortalının məlumat vermə vəzifəsi üzrə qeyd-şərt

Sığorta olunan və onun xidmətçiləri, habelə agentləri bu sənədə əsasən bərpa olunmalı olan itki ilə əlaqədar aşağıdakıları etməyə borcludurlar:

**11.1** Bu cür itkinin qarşısının alınması və ya onun minimuma endirilməsi üçün lazım ola biləcək tədbirləri görmək və

**11.2** Yük daşıyıcılarına, yükün saxlanılmaq üçün verilmiş olduğu başqa məsul şəxslərə və ya üçüncü tərəflərə qarşı bütün hüquqların lazımi qaydada qorunmasını və həyata keçirilməsini təmin etmək; bütün Sığortaçılar, bu sənədə əsasən bərpa olunmalı olan hər hansı itkiyə əlavə olaraq bu vəzifələrin həyata keçirilməsi ilə bağlı Sığorta olunanın lazımi və əsaslandırılmış qaydada çəkmiş olduğu hər hansı xərcləri kompensasiya edir.

**12.** Hüquqdan imtina üzrə qeyd-şərt

Sığortalı yaxud Sığortaçının sığortalanmış yükün xilas etməsi, müdafiəsi, yaxud bərpa edilməsi üzrə görülən tədbirləri, onların öz hüquqlarından imtina etməsi yaxud Sığortaçının abandona razılıq verməsi və ya tərəflərdən hər hansı birinin hüquqlarının məhdudlaşdırılmasına razılıq əlaməti kimi qəbul olunmamalıdır.

## LƏNGİMƏLƏRİN QARŞISININ ALINMASI

**13.** Bu sığorta şərtlərinə görə Sığortalı ondan asılı olan bütün vəziyyətlərdə mümkün qədər tez və operativ hərəkət etməlidir.

## HÜQUQ VƏ TƏCRÜBƏ

**14.** Tətbiq olunacaq hüquq

Bu sığorta Azərbaycan Respublikası hüququ əsasında tənzim ediləcək.

**Qeyd** :Sığortalı bu sığorta ilə əhatə olunan hadisə haqqında xəbərdar olan kimi dərhal bu haqda Sığortaçıları məlumatlandırmalıdır və Sığortalının bu sığorta üzrə sığorta ödənişi almaq hüququ onun bu öhdəliyə əməl etməsindən birbaşa asılıdır.

## YÜK SIĞORTASI ÜZRƏ QEYD-ŞƏRT CL 370 – RADİOAKTİV TULLANTILAR, KİMYƏVİ, BIOLOJI, BİO-KİMYƏVİ VƏ ELEKTROMAQNİT SILAHLARIN İSTISNASI

Bu maddə birinci dərəcəlidir və bu sığorta müqaviləsində onunla uyğun gəlməyən hər bir hal üzərində üstün hüquqi qüvvəyə malikdir.

**1.** Heç bir halda bu sığorta müqaviləsi birbaşa və ya dolayı yolla aşağıdakıların səbəb olduğu, kömək etdiyi və ya onlardan meydana çıxan itki, ziyan, məsuliyyət və ya xərcləri əhatə etmir:

**1.1** hər hansı nüvə yanacağından, nüvə tullantısından və ya nüvə yanacağının yanmasından əmələ gələn radiaktivliyin yaratdığı ionlaşdırıcı radiasiya və ya çirklənmə;

**1.2** hər hansı nüvə qurğusunun, reaktorunun, başqa nüvə agreqatının və ya onun komponentinin radioaktiv, toksik, partlayıcı və ya digər təhlükəli və ya çirkləndirici xassələri

**1.3** atom və ya nüvə bölünməsini və/ və ya sintezini və ya başqa reaksiya və ya radioaktiv qüvvə və ya maddəni istifadə edən hər hansı silah və ya cihaz.

**1.4** hər hansı radioaktiv maddənin radioaktiv, toksik, partlayıcı və ya başqa təhlükəli və ya çirkləndirici xassələri. Bu sub-bölmədəki istisna, nüvə yanacağından başqa, kommersiya, kənd təsərrüfatı, tibbi, elmi və ya başqa oxşar sülh məqsədləri üçün izotoplar hazırlandıqda, daşındıqda, saxlandıqda, yaxud istifadə edildikdə,izitoplara şamil olunmur.

**1.5** bütün kimyəvi, bioloji, bio-kimyəvi və ya elektromaqnit silahlar.

## “ Meqa Sığorta” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti

## Yük sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto-dərəcələr hesablanır. Netto-dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1. Sığorta hadisəsinin baş verməsi ehtimalı(q) - 0,01;
2. Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) – 160000 manat;
3. Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) - 24000 manat;
4. Bağlanılacaq sığorta müqavilələrinin sayı (n) - 450.

Tn, Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risk üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə=100qSö/So = 100·0,01-124000/160000 = 0,15 manat

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal a=2 olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:
Tr-1,2Tə·a· ((l-q)/(nq))½ = 0,15·l,2·2· ((l-0,01)/(450.0,01))½ = 0,17 manat
Tn - Tə + Tr = 0,15 + 0,17 = 0,32 manat

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 70%, yüklənmə - 30%. O cümlədən, işlərin aparılması xərcləri - 28%, tarif mənfəəti - 2%.

Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən
Tb = Tn /(1-0 = 0,32/(1-0,3) = 0,46 manat.

Yükün növündən, qablaşdırılmasından, hansı nəqliyyat vasitəsi ilə daşınmasından və s. amillərdən asılı olaraq baza tarif dərəcəsinə azaldıcı və artırıcı əmsallar tətbiq edilir. Ona görə də, yekun tarif dərəcəsi 0,1% - 7.0% aralığında dəyişir.